

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

**100** ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 10 (24.496)
14 mart 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# XIII Qlobal Bakı Forumu sülhün təşviqinə töhfə verəcək

## *Beynəlxalq ictimaiyyət Azərbaycanı regionun diplomatik mərkəzlərindən biri kimi görür*

`2013-cü ildən başlayaraq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi Qlobal Bakı Forumu qlobal problemlərin müzakirəsi, siyasi dialoqun təşviqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma kimi tanınır. Forumda müxtəlif ölkələrdən Azərbaycana gələn nümayəndələr dünyadakı proseslər, qlobal təhlükəsizlik, güc balansı, beynəlxalq hüquq və digər məsələlər ətrafında müzakirələr aparırlar. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə keçirilən beynəlxalq tədbir müxtəlif ölkələrdən yüksək səviyyəli liderləri, qərar qəbul edən şəxsləri bir araya gətirərək qlobal çağırışların həlli istiqamətində dialoq və əməkdaşlığa töhfə verir.

Səhifə ⇨ 3




# Azərbaycan-Avropa İttifaqı:

## etibarlı enerji təhlükəsizliyi və ticarət tərəfdaşlığı



Səhifə ⇨ 2

# Azərbaycan-Avropa İttifaqı:



## etibarlı enerji təhlükəsizliyi və ticarət tərəfdaşlığı

Beynəlxalq münasibətlər sistemində qlobal çağırışlara əsaslanan regional əməkdaşlıqlar dövlətlərin siyasi və iqtisadi inkişafında mühüm rol oynayır. Bu baxımdan, Azərbaycanla Avropa İttifaqı arasında formalaşan münasibətlər son illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Qarşılıqlı maraqlara söykənən bu əməkdaşlıq enerji təhlükəsizliyi, nəqliyyat-logistika, iqtisadi inteqrasiya və siyasi dialoq kimi müxtəlif sahələri əhatə edir. İl ərzində həm Azərbaycan Prezidentinin, həm də Aİ-yə üzv ölkələrin liderlərinin qarşılıqlı səfərləri zamanı ikitərəfli və çoxtərəfli əməkdaşlıqlara dair yeni istiqamətlər müəyyənləşdirilir. Martın 11-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri isə hazırkı mürəkkəb siyasi, iqtisadi dönəmdə qarşılıqlı maraqdoğuran məsələlərin, qlobal çağırışların müzakirəsi baxımından yadda qaldı.

Azərbaycan-Avropa İttifaqı əlaqələrindən danışan zaman, ilk növbədə, enerji məsələsinə toxunmasaq olmaz. Bu da təbiidir. Çünki Avropa üçün enerji mənbələrinin şaxələndirilməsi strateji prioritetlərdən biridir. Bu kontekstdə Azərbaycan etibarlı tərəfdaş kimi ön plana çıxır. Xüsusilə də hazırkı dönəmdə. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Prezident İlham Əliyevlə görüşlərin ardından mətbuata bəyanatında səsləndirdiyi “Enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir” fikri həm səfərin ümumi mahiyyətini ortaya qoyur, həm də Yaxın Şərqdə baş verən müharibə fonunda Azərbaycanın Aİ üçün nə dərəcədə vacib tərəfdaş olduğunu göstərir.

Cənub Qaz Dəhlizi Avropa bazarına alternativ enerji mənbələrinin çatdırılmasını təmin edən mühüm geosiyasi və iqtisadi layihələrdən biri kimi Azərbaycan-Aİ münasibətlərində xüsusi yer tutur. Bu kontekstdə əməkdaşlıq həm Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə, həm də Azərbaycanın qlobal enerji bazarında mövqeyinin güclənməsinə xidmət edir. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, indi bu miqdar 13 milyard kubmetrə çatdırılıb. Ümumilikdə, 2021-ci ildən bəri Avropaya təbii qaz tədarükü 56 faizdən çox artıb, Trans-Adriatik Qaz Kəmərinin (TAP) ötürmə gücü isə 1,2 milyard kubmetr genişləndirilib.

Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əsas sənəd hesab olunan, 2022-ci il iyulun 18-də imzalanmış “Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”na əsasən Azərbaycan 2027-ci ilə qədər Avropaya qaz ixracını ən azı 20 milyard kubmetrə çatdırmağı planlaşdırır. Ölkəmiz son dövrlərdə Suriya, Almaniya və Avstriyaya qaz tədarükünə başlayaraq təchizat şəbəkəsini Cənub-Şərqi Avropadan Yaxın Şərqə və Mərkəzi Avropaya qədər genişləndirib. Hazırda respublikamız 16 ölkəyə təbii qaz nəql edir ki, həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə mətbuata bəyanatında da ölkəmizin enerji sahəsində qazandığı bütün bu uğurlara diqqəti çəkdi, Avropaya təbii qazın nəqlinin yaxın bir neçə ildə xeyli artacağını vurğuladı. Sitat: ***“Bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir. Elə bu ayın əvvəlində biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısını keçirdik və bu tədbirə Azərbaycan və Avropa Komissiyası ev sahibliyi edir. Orada öz nitqimdə mən auditoriyanı məlumatlandırdım ki, biz bu il qaz hasilatını artırmağı planlaşdırırıq. Biz qazı yeni yataqda hasil etməyə başlayacağıq. Bu gündən etibarən növbəti iki və ya üç il ərzində, – əgər hər şey cədvələ uyğun gedərsə, – bizim bugünkü həcmlə müqayisədə minimum 10 milyard kubmetr əlavə qazımız olacaq”.***

Azərbaycan son illərdə Avropaya yalnız təbii qaz ixrac edən ölkə kimi deyil, həm də bərpa olunan enerji sahəsində investor və tərəfdaş kimi çıxış etməyə başlayıb. Xüsusilə külək və günəş enerjisi layihələri bu əməkdaşlığın yeni mərhələsini formalaşdırır. 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” bu istiqamətdə mühüm təşəbbüslərdən biridir. Layihəyə əsasən Azərbaycanda istehsal olunan külək və günəş enerjisi Gürcüstan üzərindən Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli vasitəsilə Avropaya ötürüləcək. Bu layihə Avropanın enerji bazarında Azərbaycanın rolunu daha da artıracaq. Azərbaycan, həmçinin qoca qitəyə yönəlik enerji strategiyasına dair daxildə də böyük layihələr həyata keçirir. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan “yaşıl enerji zonası” kimi inkişaf etdirilir. Eyni zamanda Xəzər dənizi böyük külək enerjisi potensialına malikdir ki, bu potensial gələcəkdə Avropaya ixrac ediləcək elektrik enerjisinin əsas mənbələrindən biri hesab olunur. Bütün bu məsələlər Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə Bakıda keçirilən görüşlərində əsas müzakirə predmetlərindən oldu, bərpa olunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialı, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüsləri qeyd edildi. Dövlətimizin başçısı mətbuata bəyanatında beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpa olunan enerjiyə malik olmağın planda yer aldığını vurğuladı: ***“Enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpa olunan enerji ilə bağlıdır ki, onun da böyük potensialı var. Biz külək, günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpa olunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq”.***

Azərbaycanın geostrateji mövqeyi onu Avropa ilə Asiya arasında mühüm tranzit qovşaqlarından birinə çevirir. Bu baxımdan, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) layihəsinin əhəmiyyəti əvəzolunmazdır. Avropa İttifaqı üçün bu marşrut həm iqtisadi, həm də geosiyasi baxımdan önəmli yer tutur. Çünki Orta Dəhliz Avropa ilə Asiya arasında ticarətin daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsinə imkan yaradır. Azərbaycan isə bu prosesdə logistika mərkəzi kimi çıxış etməklə mühüm siyasi, iqtisadi dividendlər qazanır. Gələcəkdə açılacaq Zəngəzur dəhlizi ölkəmizin bu istiqamətdəki mövqeyini daha da gücləndirməklə ticarət əlaqələrində yeni mərhələnin əsasını qoyacaq. Martın 11-də Bakıda səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta da Prezident İlham Əliyev ilə mətbuata bəyanatında Bakı-Naxçıvan dəmir yolu layihəsinin tamamlanmasını Orta Dəhlizin inkişafında əhəmiyyətli amil kimi qiymətləndirərək bu layihənin Avropa və Asiya arasında dayanıqlı marşrut yaradacağını vurğuladı.



Ümumilikdə, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlər bir daha göstərir ki, Azərbaycan-Avropa İttifaqı münasibətləri təkcə iqtisadi əməkdaşlıqla məhdudlaşmır, həm də regional sabitlik və beynəlxalq tərəfdaşlıq baxımından strateji xarakter daşıyır. Azərbaycanın enerji resursları, geostrateji mövqeyi və çoxtərəfli diplomatiyası Avropa ilə əlaqələrin davamlı inkişafını şərtləndirən əsas faktorlardır. Bu faktorlar hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir. Gələcəkdə qlobal çağırışlara uyğun əlaqələrin daha da genişlənəcəyi və tərəflər arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyacağına əminlik böyükdür.

**Nail ƏSGƏROV**




# XIII Qlobal Bakı Forumu sülhün təşviqinə töhfə verəcək

## Beynəlxalq ictimaiyyət Azərbaycanı regionun diplomatik mərkəzlərindən biri kimi görür

*(əvvəli 1-ci səhifədə)*

Dünyanın bir çox yerində baş verən gərgin siyasi hadisələrə baxmayaraq, Qlobal Bakı Forumunda, təxminən, 400 iştirakçının bir araya gətirilməsi çox əhəmiyyətlidir. Bu, yüksək koordinasiya və dəqiqlik tələb edir. Nəzərə alsaq ki, Azərbaycan münaqişə zonalarına çox yaxın məsafədə yerləşir, müxtəlif ölkə nümayəndələrinin Bakıda keçirilən bu forumda iştirak etmək üçün Azərbaycana səfər etməsi həm də dövlətimizə olan inamdan və yüksək etimaddan xəbər verir.

Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmizdə olan siyasi-ictimai sabitlik, uğurlu xarici siyasət, sosial rifah, iqtisadi inkişaf səviyyəsi beynəlxalq ictimaiyyətin diqqətini bura yönəldir. Bütün bunlar isə Azərbaycanın nüfuzunu getdikcə artırıb, ölkəmiz qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilib.

Forumun Bakıda keçirilməsi də Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir. Bu tədbirin uğurla təşkil olunması, dialoq və müzakirə üçün platforma yaradılması isə çoxtərəfli əməkdaşlığa sadiqliyin nümayişidir. Bu forum da həmişəki kimi olduqca aktual bir mövzuya həsr olunub və bu, beynəlxalq sistemin dəyişikliklər keçirdiyi bir dövrə təsadüf edir. Bakıda "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında keçirilən "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib, dünyada və regionumuzda baş verən proseslər və digər aktual mövzularla bağlı fikirlərini diqqətə çatdırıb. Dövlət başçısı öz çıxışında dövlətimizin apardığı sülh siyasətindən danışıb.

Qeyd etmək yerinə düşər ki, Vətən savaşı qələbə ilə başa çatdıqdan, üçtərəfli Bəyanatın imzalanmasından sonra bütün dünya Cənubi Qafqazda yeni eranın başlanması üçün əsaslı bir zəmin yarandığına şahid oldu. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən üçtərəfli Bəyanat Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirildi. 2020-ci ildən bu günə kimi dövlət başçısının bu sahədə gördüyü işlər bir daha sübut etdi ki, biz sülh tərəfdarıyıq və bu, kağız üzərində qalmır. Bunu hər iki dövlətin vətəndaşları da hiss edir. Bunu ötən il baş tutan bir çox görüşlərdə də gördük. Onlardan ən vacibi isə Vaşinqton görüşü oldu. Bir neçə aydır ki, Ermənistanla sərhəddə susan silahlar, Zəngəzur dəhlizinin Naxçıvan hissəsində Ordubad stansiyasında eşidilən inşaat maşınlarının səsi bunun əyani sübutudur. Sülhə hazırlıq prosesində Azərbaycan tərəfi humanistlik nümayiş etdirərək Ermənistana Azərbaycan vasitəsilə yüklərin daşınmasına imkan yaratmaqla yanaşı, həm də Ermənistanla ticarətə və onlara ən vacib neft məhsullarının ixracına başlanılıb. Bir sözlə, biz artıq iki dövlətin arasında sülhü hiss edirik.

Məlumdur ki, iki dövlət arasında yaranacaq sülh təkcə bölgənin deyil, dünyanın böyük bir hissəsinin də nizamını dəyişəcək. Ermənistanla imzalanacaq sülh müqaviləsindən sonra Orta Dəhlizin həmin dövlətin ərazisindən keçən hissəsi dəhlizin əhatə dairəsinin genişlənməsinə səbəb olacaq, Ermənistanın müstəqillik tarixində ilklər yaşanacaq: ***"Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini – əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu bizim üçün, yəni ümumilikdə, hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq".*** Hazırda həm Orta Dəhlizə, həm də Şimal-Cənub dəhlizinə yatırımlar edildiyini, Azərbaycanın ərazisində bütün tikinti layihələrinin tam icra olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik".***

1994-cü ildən başlayan və uğurla davam edən düzgün neft-qaz siyasəti bu gün də uğurla davam edir və Azərbaycan bu sahədəki irəliləyişləri ilə böyük bir coğrafiyada strateji əhəmiyyətini təsdiqləyib. Bu gün boru kəməri ilə ixrac edilən qazın həcminə və coğrafi əhatəyə görə Azərbaycan dünyada bir nömrəli ölkədir. Belə ki, 16 ölkəyə qaz ixrac edən Azərbaycan bu gün bu sahədə söz sahibinə çevrilib. Həmin ölkələrin 10-u Avropa İttifaqının üzvü olan dövlətlərdir və düzgün davam edən siyasət nəticəsində ixracın həcmi artırılır. Dövlət başçısı öz çıxışında bir çox ölkələr üçün enerji təhlükəsizliyinin mühüm amil olduğunu vurğulayıb və beynəlxalq bazarlara etibarlı neft təchizatçısı kimi Azərbaycanın enerji təhlükəsizliyinə öz töhfəsini davam etdirəcəyini bildirib, dünyada baş verən son hadisələrə görə neft və qazın qiymətlərindəki artıma toxunub.

Əminik ki, bu günə kimi keçirilən və hər biri dünyanı narahat edən vacib məsələlərin həllinə yönəlmiş, bir çox dövlət nümayəndələri üçün mühüm məsələlərin müzakirəsi platformasına çevrilən digər Qlobal Bakı forumları kimi, bu il təşkil olunan XIII Qlobal Bakı Forumu da beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, sülhə təşviqə, ortaq həll yollarının müəyyənləşdirilməsinə mühüm töhfələr verəcək.

**Ramiyə ƏKBƏROVA**



## “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 mart 2026-cı il*

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddələr 11-12 (Cild I) aşağıdakı dəyişikliklər təsdiq edilsin:

1. Preambula üzrə:

1.1. birinci və ikinci abzaslar ləğv edilsin;

1.2. üçüncü və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” 1991-ci il 30 avqust tarixli Bəyannamədə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktında təsbit edilmiş prinsiplər və Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində – referendumda qəbul edilən Konstitusiyası təşkil edir.”.

2. 1-ci maddənin II hissəsindən “, 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri” sözləri çıxarılsın.

3. Aşağıdakı məzmunda 3-1-ci maddə əlavə edilsin:

“Maddə 3-1. **Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi**

I. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirən icra orqanıdır.

II. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi rəhbərlik edir.

III. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.”.

4. 5-ci maddə ləğv edilsin.

5. 10-cu maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 10. **Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri**

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.”.

6. 13-cü maddənin mətni I hissə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda II hissə əlavə edilsin:

“II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.”.

7. 14-cü maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Müharibə şəraitində hərbi əməliyyatların aparılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən qəbul edilir.”.

8. 18-ci maddə üzrə:

8.1. I hissə üzrə:

8.1.1. birinci abzasda “sessiyaya” sözü “yaz və payız sessiyalarına” sözləri ilə əvəz edilsin;

8.1.2. ikinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdən sonra martın 10-dək onun 31 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasının keçirilmə vaxtını Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi müəyyən edir.”;

8.2. II hissə aşağıdakı redaksiyada verilsin:

“II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyalarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında çağırır.”;

8.3. IV hissənin ikinci cümləsində “Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin” sözləri “Azərbaycan Respublikası Prezidentinin, yaxud Azərbaycan Respublikası Milli Məclisinin” sözləri ilə əvəz edilsin.

9. 24-cü maddə üzrə:

9.1. I hissə üzrə:

9.1.1. 3-cü bənd ləğv edilsin;

9.1.2. 9-cu bəndə “mədəniyyət” sözündən sonra “, habelə Naxçıvan Muxtar Respublikasının fəxri adları” sözləri əlavə edilsin;

9.2. II hissə aşağıdakı redaksiyada verilsin:

“II. Bu maddənin I hissəsinin 1-ci və 2-ci bəndlərində göstərilən məsələlərə dair qanunlar 31 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul edilir.”.

10. 25-ci maddənin I hissəsi üzrə:

10.1. aşağıdakı məzmunda 1-1-ci və 6-1-ci bəndlər əlavə edilsin:

“1-1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə buraxılması;”;

“6-1) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Prezidentinin razılığı ilə istefası;”;

10.2. 7-ci bənd ləğv edilsin;

10.3. 8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“8) Naxçıvan Muxtar Respublikasında seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən dövlət orqanının üzvlərinin təyin edilməsi;”;

10.4. aşağıdakı məzmunda 8-1-ci bənd əlavə edilsin:

“8-1) Naxçıvan Muxtar Respublikası məhkəmələrinin hakimləri sırasından Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqanın üzvlüyünə namizəd təklif edilməsi;”;

10.5. 9-cu bənd ləğv edilsin.

11. Aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

“Maddə 28-1. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən və ya bu Konstitusiyanın 24-cü və 25-ci maddələrində, 26-cı maddəsinin II–V hissələrində və 27-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılır. II. Növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.”.

12. 29-cu maddənin II hissəsi aşağıdakı redaksiyada verilsin:

“II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ali təhsilli hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər.”.

13. 32-ci maddənin I hissəsi üzrə:

13.1. aşağıdakı məzmunda 1-1-ci, 2-1-ci, 2-2-ci və 4-1-4-3-cü bəndlər əlavə edilsin:

“1-1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;”;

“2-1) Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai siyasi həyatının mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;

2-2) Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;”;

“4-1) Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti başçılarının vəzifəyə təyin edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

4-2) Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında qulluq (xidmət) keçən şəxslərə ixtisas dərəcələrinin və ali xüsusi rütbələrin verilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

4-3) Naxçıvan Muxtar Respublikasının dövlət təltifləri ilə təltif edir, Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilmə haqqında Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;”;

13.2. 5-ci bənd ləğv edilsin;

13.3. 6-cı bənddə “qərar” sözü “sərəncam” sözü ilə əvəz edilsin.

14. 33-cü maddədə “qərarlar” sözü “sərəncamlar” sözü ilə əvəz edilsin.

15. 34-cü maddə üzrə:

15.1. III hissədə “tabedir və onun qarşısında müntəzəm” sözləri “özünün fəaliyyəti barədə” sözləri ilə əvəz edilsin;

15.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

“IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirir.”.

16. 39-cu maddənin I hissəsi üzrə:

16.1. altıncı və yeddinci abzaslar müvafiq olaraq yeddinci və səkkizinci abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“muxtar respublikanın dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin razılığı ilə mərkəzi icra hakimiyyəti orqanlarını yaradır və ləğv edir;”;

16.2. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

“bu Konstitusiyaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini həyata keçirməsindən irəli gələn məsələləri, həmçinin Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.”.

17. 44-cü maddə üzrə:

17.1. II hissə üzrə:

17.1.1. birinci abzasın ikinci cümləsindən “, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin” və “, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin” sözləri çıxarılsın;

17.1.2. 1-ci bənddən “Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının,” sözləri çıxarılsın və həmin bənddə ikinci halda “qərarlarının” sözü “sərəncamlarının” sözü ilə əvəz edilsin;

17.1.3. 2-ci bənddən “Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının,” sözləri çıxarılsın, həmin bənddə ikinci halda “qərarlarının” sözü “sərəncamlarının” sözü ilə, ikinci halda “sərəncamlarının,” sözü “qərarlarının və” sözləri ilə əvəz edilsin və həmin bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

17.1.4. 3-cü bənd ləğv edilsin;

17.2. III hissədə “1-3-cü” sözləri “1-ci və 2-ci” sözləri ilə əvəz edilsin;

17.3. VI hissədən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və” sözləri çıxarılsın.

18. 45-ci maddənin II hissəsindən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi ilə” sözləri çıxarılsın.

19. 46-cı maddə üzrə:

19.1. III hissədən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi əsasında” sözləri çıxarılsın və həmin hissəyə “təyin” sözündən sonra “və vəzifədən azad” sözləri əlavə edilsin;

19.2. IV hissədən “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və” sözləri çıxarılsın və həmin hissəyə “təyin və” sözlərindən sonra “vəzifədən” sözü əlavə edilsin.

20. 48-ci maddənin III hissəsi üzrə:

20.1. 3-cü bənd ləğv edilsin;

20.2. 5-ci bəndə “normativ” sözündən sonra “hüquqi” sözü əlavə edilsin.

21. 49-cu maddə üzrə:

21.1. II hissədə “icra hakimiyyəti” sözləri “qanunvericilik, icra” sözləri ilə əvəz edilsin;

21.2. III hissə ləğv edilsin;

21.3. IV hissənin birinci cümləsində “fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarına” sözləri “fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına” sözləri ilə əvəz edilsin;

21.4. V hissəyə hər iki halda “orqanlarının” sözündən sonra “normativ hüquqi” sözləri əlavə edilsin və həmin hissədə “fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına,” sözləri “fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və” sözləri ilə əvəz edilsin.

22. 50-ci maddə üzrə:

22.1. II hissədə “təklif” sözü “qanun” sözü ilə əvəz edilsin;

22.2. III hissədə “Konstitusiya qanunları” sözləri “qanunlar” sözü ilə əvəz edilsin və həmin hissədən “təklif, qanunlar üçün nəzərdə tutulmuş qaydada,” sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





Görüş zamanı səlahiyyətli nümayəndə Ceyhun Cəlilov qonaqları salamlayaraq onları muxtar respublikada görməkdən məmnun olduğunu bildirib. O, Azərbaycan və Türkiyə arasında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan münasibətlərin dinamik inkişaf etdiyini qeyd edib. Səlahiyyətli nümayəndə vurğulayıb ki, müstəqil Azərbaycan bu gün müzəffər lideri, güclü dövləti, qüdrətli ordusu və vətənpərvər xalqı ilə dünya arenasında fəxrlə addımlayır. "Bir millət, iki dövlət" anlayışı ilə əsrlərə dayanan dostluq və qardaşlıq münasibətlərimiz siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dərinləşməkdədir.

Ceyhun Cəlilov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi dövründə, eləcə də bütün sahələr üzrə Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstək ölkəmizdə yüksək qiymətləndirilir.





Naxçıvan Beynəlxalq Hava Limanının dron hücumuna məruz qalması nəticəsində Naxçıvan-Bakı və əks istiqamətlərdə uçuşların müvəqqəti dayandırıldığı tarixlərə toxunub. Qeyd edib ki, muxtar respublika ilə ölkəmizin əsas hissəsi arasında sərnişin daşımalarının fasiləsizliyini təmin etmək məqsədilə 5-9 mart tarixlərində Bakıdan Türkiyənin İğdır şəhərinə aviareyslərin təşkil olunması qardaş ölkə ilə dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.

Ceyhun Cəlilov, həmçinin Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında Sədərək-Dilucu gömrük-keçid məntəqəsi vasitəsilə gediş-gəlişin təmin olunmasında da mühüm rol oynayan, bir millət, iki dövlət prinsipinin rəmzinə çevrilən "Ümid" körpüsünün Ümummilli Lider Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə istifadəyə verildiyini xatırladıb.

Səmimi qarşılanmaya və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokel strateji müttəfiqliyə əsaslanan hərbi əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyətini xüsusi vurğulayıb. O, Azərbaycan Ordusunun davamlı inkişaf etdiyini və bunun qardaş Türkiyədə böyük məmnunluq doğurduğunu qeyd edib.

Metin Tokel Naxçıvan Muxtar Respublikasında baş verən son hadisələrin üzücü olduğunu diqqətə çatdıraraq insan tələfatının olmamasını sevindirici hal kimi dəyərləndirib.

Görüşdə Azərbaycan-Türkiyə strateji əməkdaşlığının müxtəlif istiqamətləri müzakirə olunub, qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda hədiyyələr təqdim edilib və xatirə fotosu çəkdirilib.

# Naxçıvanda Daxili Qoşunların yaranmasının 34-cü ildönümü münasibətilə tədbir keçirilib





Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 34-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov iştirak edib.

Tədbirdən əvvəl Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Süleyman Neymətov Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilova Naxçıvan Daxili Qoşunlarının hərbi hissəsi barədə məlumat verib.

Səlahiyyətli nümayəndə şəxsi heyəti salamladıqdan sonra hərbi hissənin Xatirə kitabına qeydlərini yazaraq Daxili Qoşunların yaranma günü münasibətilə şəxsi heyəti təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Tədbir çərçivəsində şəhid ailə üzvləri və qazilərlə görüş keçirilib. Görüşdə şəhidlərə və qazilərə ehtiramını bildirən səlahiyyətli nümayəndə bu kateqoriyadan olan ailələrin dövlətimizin xüsusi qayğısı ilə əhatə olunduğunu deyib. Qeyd edib ki, Prezident İlham Əliyevin diqqət və tapşırığı ilə şəhid ailələrinin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin, veteranların sosial təminatı və rifahının yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl işlər həyata keçirilir.

Səlahiyyətli nümayəndə bildirib ki, digər qoşun növləri kimi, yarandığı gündən etibarən Daxili Qoşunların şəxsi heyəti də ölkəmizin sabitliyi və vətəndaşların təhlükəsizliyi naminə əzmkarlıq nümayiş etdirib. Qoşunlara göstərilən diqqət və qayğı nəticəsində onun inkişaf və yüksəliş yolunun möhkəm təməli qoyulub. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Daxili Qoşunlar müasir maddi-texniki baza və yüksək döyüş hazırlığına malik çevik hərbi quruma çevrilib.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanına əsasən 12 mart – Daxili Qoşunlar Günü kimi təsis edilib. Bu tarix Daxili Qoşunların şərəfli xidmət yoluna verilən yüksək qiymətin və qoşunlara göstərilən etimadın ifadəsidir. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərə ilk dəfə 1992-ci il martın 12-də başlayıb. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz izlər buraxıb.





Birinci Qarabağ müharibəsi zamanı ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərdə Daxili Qoşunların şəxsi heyətindən 682 nəfər şəhid olub, 9 nəfər hərbi qulluqçu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Vətən müharibəsi zamanı isə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətindən 66 nəfər şəhid olub, 4 nəfər hərbi qulluqçu Vətən müharibəsi qəhrəmanı adına layiq görülüb.

Ceyhun Cəlilov Daxili Qoşunların ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini Prezident İlham Əliyevin yüksək qiymətləndirdiyini qeyd edib.

Vurğulanıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir. Qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, ictimai asayişin və dövlət təhlükəsizliyin qorunmasında əzm və qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində qazanılan parlaq Qələbə regionda yeni reallıqlar yaradıb və bu gün Azərbaycan sabitlik və inkişaf yolu ilə inamla irəliləyir. Bu reallıq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin güclü iradəsinin və düşünülmüş daxili və xarici siyasətinin məntiqi nəticəsidir.

Səlahiyyətli nümayəndə ərazi bütövlüyümüz və suverenliyimizin tam təmin olunması uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət diləyib, şəhid ailələrinə səbir, qazilərə isə cansağlığı və uzun ömür arzulayıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis general-mayoru Süleyman Neymətov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqət və qayğısı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə və şəxsi heyətin peşəkarlığının artırılmasına mühüm töhfə verir.

Qeyd olunub ki, 34 il ərzində formalaşan zəngin xidmət təcrübəsi, möhkəm nizam-intizam, yüksək döyüş hazırlığı və Vətənə sarsılmaz bağlılıq bu gün də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

Nazir bildirib ki, qazanılmış əməliyyat təcrübəsi və institusional inkişaf şəxsi heyətin peşəkar potensialını daha da gücləndirib, qarşıya çıxan çağırışlara çevik və adekvat reaksiya vermək imkanlarını artırıb. Daim təkmilləşdirilən hazırlıq sistemi, müasir yanaşmaların tətbiqi və peşəkar kadr potensialı Daxili Qoşunların dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir.

Vurğulanıb ki, Daxili Qoşunların şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifə və tapşırıqların icrasına hər zaman hazırdır. Ali Baş Komandanın əmr və göstərişlərinin bundan sonra da yüksək məsuliyyət, intizam və qətiyyətlə yerinə yetiriləcəyi bildirilib.

Qeyd olunub ki, Daxili Qoşunların şəxsi heyəti dövlətə sədaqət və xalqa xidmət prinsiplərinə sadiq qalaraq üzərinə düşən vəzifələri bundan sonra da yüksək məsuliyyət və peşəkarlıqla yerinə yetirəcək.

Görüşdə iştirak edən şəhid ailələri üzvləri və qazilər şəhid adına verilən yüksək dəyərə, həyata keçirilən sosial dəstək tədbirlərinə və göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda şəhid ailələri üzvlərinə hədiyyələr təqdim olunub. Daxili Qoşunların fəaliyyətini və keçdiyi döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbir şəhid ailələri üzvlərinin, qazilərin və şəxsi heyətin iştirakı ilə nahar süfrəsi ətrafında davam etdirilib.

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tərəfindən növbəti vətəndaş qəbulu keçirilib







Qəbul zamanı vətəndaşların, o cümlədən müharibə iştirakçılarının müraciətləri dinlənilib. Vətəndaşlar, əsasən, sosial təminat, məşğulluq, əlillik, kommunal xidmətlər, həmçinin digər sosial məsələlərlə bağlı müraciətlər ediblər.

Səlahiyyətli nümayəndə hər bir müraciətə həssaslıqla yanaşıldığını qeyd edərək qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və onların həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.

Qeyd olunub ki, vətəndaşların müraciətlərinin dinlənilməsi, onların sosial problemlərinin həlli istiqamətində operativ tədbirlərin görülməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu məqsədlə vətəndaş qəbulları mütəmadi olaraq davam etdirilir.

# Naxçıvanda normativ-hüquqi aktlar təkmilləşdirilir: 22 qərar ləğv olunub



Naxçıvan Muxtar Respublikası Baş nazirinin imzaladığı 2026-cı il 6 mart və 9 mart tarixli qərarlarına əsasən 2006-2007-ci illərdə imzalanmış 12 qərarda dəyişiklik edilib, 22 qərar isə ləğv olunub.

Bu, Naxçıvan Muxtar Respublikasında aparılan institusional və hüquqi islahatlar çərçivəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, təkrarlanan və aktuallığını itirmiş hüquqi aktların sistemləşdirilməsi məqsədi daşıyır.

# Naxçıvanın idarəetmə modelində yeni mərhələ



**Bəhruz MƏHƏRRƏMOV**
*Milli Məclisin deputatı*

***Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilən dəyişikliklər muxtar respublikanın idarəetmə modelinin Azərbaycan Respublikasının unitar dövlət quruluşuna tam uyğunlaşdırılması və mərkəzi icra hakimiyyətinin şaquli iyerarxiyasının daha da möhkəmləndirilməsi məqsədini daşıyır.***

Texniki detallara diqqət etsək, möhtərəm Prezidentin Sərəncamı ilə təsdiq edilən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında təsdiq edilən dəyişikliklər, ilk növbədə, bu normativ akta iki yeni maddənin əlavə olunması, Konstitusiyanın mətnindən 5-ci maddənin çıxarılması, o cümlədən bir sıra maddələrdə və sənədin preambula hissəsində əhəmiyyətli dəyişiklikləri, habelə muxtar respublika Konstitusiyasının, bütövlükdə, Azərbaycan Respublikasının Konstitusiyasına uyğunlaşdırma, dəqiqləşdirmə və texniki xarakterli dəyişiklikləri ehtiva edir.

İlk növbədə, preambuladan başlasaq, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının preambulası geosiyasi reallıqlara uyğun olaraq yenidən formalaşdırılmışdır. Naxçıvanın muxtariyyət statusunun əsasında Moskva və Qars kimi beynəlxalq müqavilələrdən ziyadə, birbaşa "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" 1991-ci il 30 avqust tarixli Bəyannamə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktı və ölkəmizin 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsində qəbul edilən cari Konstitusiyasının dayandığı təsbit edilir. Bu isə o deməkdir ki, dəyişikliklər, heç şübhəsiz ki, ölkəmizin artan güc, imkan və nüfuzuna söykənən suverenliyinin inikasıdır. Məhz bu hüquqi mövqe davam etdiriləraək sənədin preambulasına Azərbaycan Respublikasının Konstitusiyasının 134-cü maddəsinin 3-cü hissəsi rəhbər tutularaq muxtar respublikanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması barədə müddəa əlavə edilir.

Dəyişikliklərin ən mühüm istiqaməti "hakimiyyətlərin bölgüsü" prinsipinin yerli səviyyədə yenidən tənzimlənməsidir. Belə ki, sənədə "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddə əlavə edilir və müddəanın məzmununa əsasən Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən, Prezidentin müəyyən etdiyi səlahiyyətləri həyata keçirən icra orqanı kimi müəyyən edilən səlahiyyətli nümayəndəliyə Azərbaycan Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi və birbaşa Prezidentə tabe olan Prezidentin səlahiyyətli nümayəndəsi rəhbərlik edəcək. Dəyişikliyin digər mühüm istiqaməti Konstitusiyadan "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" adlı 5-ci maddənin çıxarılması və aidiyyəti səlahiyyətlərin Azərbaycan Respublikasının Konstitusiyasına və dövlət idarəçiliyində rəhbər tutulan prinsiplərə müvafiq olaraq aidiyyəti orqanlara ötürülməsidir. Bundan başqa, dəyişikliklə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Ali Məclisə tabe olmayacaq və yeni iş qaydasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək. Həmçinin Muxtar Respublikada yerli icra hakimiyyətlərinin başçılarının Ali Məclisin sədrinin təqdimatı əsasında Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin edilməsi yeni dəyişikliyin mühüm istiqamətlərindən biridir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilmək üçün artıq muxtar respublika ərazisində 5 ildən az olmayaraq daimi yaşamaq tələbi də dəyişikliklə aradan qaldırılır. Eyni zamanda bundan sonra Ali Məclisə seçkiləri muxtar respublika Ali Məclisinin sədrinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edəcək, Ali Məclisin sessiyasının qapalı iclaslarının keçirilə bilməsi isə yalnız Prezidentin, Azərbaycan Respublikasının Milli Məclisinin təklifi ilə baş tuta biləcək.

Möhtərəm Prezidentin sərəncamı ilə təsdiq edilən qanuna müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına Ali Məclisin buraxılmasını ehtiva edən 28-1-ci maddə əlavə olunur ki, bu müddəada Ali Məclisin 31 deputatının tələbi və ya Konstitusiyanın 24, 25, 26 və 27-ci maddələrinin müvafiq bəndlərində nəzərdə tutulan vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması təsbit olunur. Həmçinin Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişiklik və əlavələr artıq konstitusiya qanunları ilə yox, qanunlar şəklində qəbul ediləcək, muxtar respublikanın Ali Məclisin sədrinin aktları isə qərar deyil, sərəncam adlandırılacaq.

# Naxçıvanın idarəetmə sistemində konstitusion yenilənmə



**Ülviyyə HƏMZƏYEVA**
*Milli Məclisin deputatı*

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilən son dəyişikliklər ölkəmizin dövlət idarəçiliyinin daha səmərəli və müasir prinsiplər əsasında təşkilinə yönəlmiş mühüm addım kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu dəyişiklikləri imzalaması dövlət idarəçiliyinin təkmilləşdirilməsi, hüquqi sistemin daha da gücləndirilməsi və ölkə daxilində vahid konstitusion məkanın möhkəmləndirilməsi istiqamətində ardıcıl həyata keçirilən islahatların məntiqi davamıdır. Bu dəyişikliklərin əsas məqsədi muxtar respublikanın idarəetmə modelinin Azərbaycan Respublikasının konstitusion sistemi ilə daha aydın şəkildə uzlaşdırılması və dövlət hakimiyyəti institutları arasında koordinasiyanın gücləndirilməsidir.

Qəbul edilən dəyişikliklər, ilk növbədə, hüquqi çərçivənin müasir reallıqlara uyğunlaşdırılmasına xidmət edir. Konstitusiyanın preambulasında aparılan yeniliklər Naxçıvan Muxtar Respublikasının hüquqi statusunun Azərbaycanın dövlət müstəqilliyinə əsaslanan konstitusion sənədlərlə bağlılığını daha aydın şəkildə ifadə edir. Eyni zamanda Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması barədə müddəanın vurğulanması dövlət suverenliyinin və konstitusion prinsiplərin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu yanaşma Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən güclü dövlətçilik siyasətinin və ölkənin suverenliyinin möhkəmləndirilməsi strategiyasının tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Dəyişikliklərin ən mühüm istiqamətlərindən biri idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Bu çərçivədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi nəzərdə tutulur. Bu institut dövlət siyasətinin daha operativ və koordinasiyalı şəkildə həyata keçirilməsinə xidmət edəcək və mərkəzi hakimiyyətlə muxtar respublika arasında əlaqələrin daha effektiv təşkilinə imkan yaradacaq. Bu qərar Prezident İlham Əliyevin dövlət idarəçiliyində çevik və səmərəli mexanizmlərin formalaşdırılmasına yönəlmiş strateji baxışının növbəti təzahürü kimi qiymətləndirilə bilər.

Eyni zamanda idarəetmə sistemində səlahiyyət bölgüsünün daha aydın müəyyənləşdirilməsi istiqamətində də mühüm addımlar atılır. Konstitusiyada aparılan dəyişikliklər nəticəsində bəzi səlahiyyətlərin yenidən tənzimlənməsi, icra strukturlarının fəaliyyət mexanizmlərinin dəqiqləşdirilməsi və dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin daha sistemli şəkildə qurulması nəzərdə tutulur. Bu dəyişikliklər dövlət idarəçiliyində məsuliyyət və səmərəliliyin artırılmasına xidmət edir.

Qanunvericilik hakimiyyəti ilə bağlı mexanizmlərdə də bir sıra yeniliklər tətbiq edilir. Ali Məclisin fəaliyyəti, seçkilərin keçirilməsinin hüquqi çərçivəsi daha aydın şəkildə müəyyənləşdirilir. Bu isə idarəetmə prosesində şəffaflığın və hüquqi müəyyənliyin gücləndirilməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilən dəyişikliklər dövlət idarəçiliyinin müasirləşdirilməsi və konstitusion sistemin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu dəyişiklikləri təsdiqləməsi dövlət idarəçiliyində ardıcıl və uzaqgörən siyasətin davamı olmaqla yanaşı, ölkəmizin güclənən dövlətçilik modelinin və vahid hüquqi məkanının daha da möhkəmlənməsinə xidmət edən mühüm qərar kimi qiymətləndirilməlidir. Məqsəd dövlət idarəçiliyinin daha çevik, səmərəli və koordinasiyalı şəkildə həyata keçirilməsini təmin etməkdir ki, bu da nəticə etibarilə vətəndaşların rifahına və ölkənin davamlı inkişafına xidmət edir.

# Naxçıvanda konstitusion islahatlar yeni inkişaf mərhələsinin hüquqi təməlidir



**Əziz QASIMOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

***Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında edilən dəyişikliklər həm regionun hüquqi və institusional inkişafında, həm də dövlətçilik tarixində yeni bir şəfəq mərhələsi kimi dəyərləndirilir. Bu gün Naxçıvan özünün sosial-iqtisadi simasını sürətlə dəyişərkən idarəetmənin qəliblərdən çıxaraq daha çevik və müasir bir arxitekturaya qovuşması qaçılmaz idi.***

Bu islahatlar muxtar respublikanın hüquqi taleyində yeni bir yol xəritəsi cızır. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul edilməsi muxtar respublikanın inkişafında mühüm mərhələdir. Son illər regionda müşahidə olunan sosial-iqtisadi dinamika, idarəetmə sistemində aparılan yeniliklər və dövlət institutlarının fəaliyyətində çevikliyin artırılması istiqamətində atılan addımlar mövcud hüquqi bazanın təkmilləşdirilməsini zəruri edib. Hüquqi əsaslar zamanın tələblərinə uyğun yenilənmədikdə institusional inkişafın dayanıqlığı zəifləyə bilər. Buna görə də konstitusion dəyişikliklər hüquqi sistemin cəmiyyətin real ehtiyaclarına uyğunlaşdırılmasının təbii və vacib mərhələsidir.

Aparılan dəyişikliklərin əsas mahiyyəti dövlət idarəçiliyinin daha funksional, məqsədyönlü və çevik mexanizmlər əsasında təşkilinə xidmət edir. Müasir dövrdə idarəetmənin effektivliyi yalnız inzibati qərarların qəbul edilməsi ilə ölçülmür. Həmin qərarların aydın və möhkəm hüquqi əsaslara söykənməsi də mühüm amildir. Bu baxımdan, Konstitusiyada edilən dəyişikliklər səlahiyyət bölgüsünün daha dəqiq müəyyənləşdirilməsinə, idarəetmə institutlarının fəaliyyətində hüquqi müəyyənliyin artırılmasına və normativ sistemdə ardıcıllığın təmin olunmasına yönəlib.

Bu dəyişikliklər yalnız cari mərhələnin tələbatından irəli gəlmir. Konstitusion islahatlar həm də Naxçıvanın gələcək inkişaf perspektivlərini nəzərə alan strateji hüquqi yanaşmanın tərkib hissəsidir. Muxtar respublikanın uzunmüddətli inkişafı, sosial rifahın yüksəldilməsi, iqtisadi imkanların genişləndirilməsi və dövlət idarəçiliyində çevik qərarvermə mexanizmlərinin qurulması üçün hüquqi sahədə də möhkəm və müasir baza formalaşdırılmalıdır. Bu baxımdan, konstitusion dəyişikliklər həmin hüquqi bazanın yaradılmasına xidmət edir.

Konstitusiyada edilən dəyişikliklərin digər mühüm cəhəti hüquqi sabitliyin gücləndirilməsi və idarəetmə sistemində vahid yanaşmanın təmin olunmasıdır. Hüquqi dövlət prinsiplərinin daha ardıcıl tətbiqi, normativ tənzimləmədə aydınlığın təmin edilməsi və institusional uyğunluğun möhkəmləndirilməsi regionda həyata keçirilən islahatların davamlı nəticə verməsi üçün əsas şərtlərdən biridir. Bu baxımdan, qəbul olunan dəyişikliklər hüquqi sistemin sabitliyini möhkəmləndirən və dövlət mexanizminin dayanıqlığını artıran mühüm addım kimi qiymətləndirilir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununun qəbul edilməsi hüquqi inkişaf, institusional yenilənmə və müasir idarəetmə prinsiplərinin möhkəmləndirilməsi baxımından mühüm siyasi-hüquqi hadisədir.

Həyata keçirilən konstitusion islahatlar Naxçıvanın gələcək inkişaf yolunun hüquqi xəritəsini daha aydın və sistemli şəkildə müəyyənləşdirir. Bu dəyişikliklər muxtar respublikada dövlət idarəçiliyinin daha səmərəli təşkili, hüquqi sabitliyin gücləndirilməsi və sosial-iqtisadi inkişafın normativ əsaslar üzərində davamlı şəkildə irəliləməsi üçün geniş imkanlar yaradır.

Bu mühüm siyasi-hüquqi hadisə Naxçıvanın Azərbaycanın ümumi inkişaf strategiyasına tam inteqrasiyasını təmin etməklə yanaşı, muxtar respublikanın həm bu gününün, həm də sabahının hüquqi zəmanəti rolunda çıxış edir. Yeni redaksiyada qəbul edilmiş müddəalar regionun çiçəklənməsinə və idarəetmədə keyfiyyətcə yeni standartların bərqərar olmasına xidmət edəcəkdir.




## Qlobal Bakı Forumu dövlətimizin beynəlxalq nüfuzunun göstəricisidir

Bu həftə Azərbaycan daha bir beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilən XIII Qlobal Bakı Forumudur. Tədbirdə dünyanın müxtəlif yerlərindən nüfuzlu siyasi xadimlər, beynəlxalq təşkilatların nümayəndələri və ekspertlər, eləcə də digər nüfuzlu qonaqlar iştirak etdilər.

Qlobal Bakı forumları kimi platformalar, rəsmi diplomatiyanın həll edə bilmədiyi problemlərin, qeyri-rəsmi və daha elastik formatda müzakirəsinə şərait yaradır. Forumun məqsədi həm də dini, mədəni və etnik zəmində baş verən qarşıdurmaları azaltmaqdan ibarətdir. Ölkəmiz müxtəlif maraqlara sahib olan tərəfləri masa ətrafında toplamaqla sülhün və sabitliyin təmin olunmasına real töhfə verir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr və bir sıra digər qlobal problemlər geniş müzakirə edilib, onların həlli yollarının tapılması istiqamətində təhlillər aparılıb.

Tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən 2012-ci il sentyabrın 30-da dahi şairin vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Təbii ki, ölkəmizdə belə mötəbər forumun keçirilməsi dövlətimizin beynəlxalq aləmdəki nüfuzunun göstəricisidir. Forum göstərir ki, dünya birliyi Azərbaycana, onun dünyadakı yeri və roluna mühüm əhəmiyyət verir. XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: ***"Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi geniş spektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir. Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə, həqiqətən, böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir".***

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Forumun Bakıda keçirilməsi də Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiq edir.

**Şəhla ƏHMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Sülhün dəyəri və təhlükəsizlik çağırışı Azərbaycanın təcrübəsi qlobal müzakirələrin mərkəzində

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bakıda işə başlayan "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda çıxış edərək müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik, sabitlik və sülh məsələlərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Dövlət başçısı qeyd edib ki, hazırkı qlobal şəraitdə təhlükəsizlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində əsas prioritet olmalıdır.

Prezident İlham Əliyevin sözlərinə görə, son illərdə dünyada baş verən hadisələr göstərir ki, təhlükəsizlik təmin edilmədən inkişaf və tərəqqidən danışmaq mümkün deyil. Çünki təhlükəsizlik və sabitlik olmadan iqtisadi inkişaf, sosial rifah və beynəlxalq əməkdaşlıq kimi məsələlər öz əhəmiyyətini itirir.

### *Azərbaycanın təhlükəsizlik və suverenlik təcrübəsi*

Dövlət başçısı çıxışında Azərbaycanın son onilliklərdə keçdiyi tarixi yolu xatırladaraq qeyd edib ki, regional təhlükəsizlik məsələsi ölkəmiz üçün hər zaman prioritet olub. Uzun illər ərzində Azərbaycan ərazilərinin işğal altında qalması ölkəmiz üçün ən ciddi təhlükəsizlik problemi idi.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bərpa edib. BMT Nizamnaməsinin özünümüdafiə hüququnu nəzərdə tutan maddəsinə əsaslanaraq Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə işğal altındakı ərazilərini azad edib.

Dövlət başçısı qeyd edib ki, bu proses müasir tarixdə nadir hallardan biridir: ölkə əvvəlcə hərbi güc tətbiq etməklə suverenliyini bərpa edib, daha sonra isə siyasi yollarla sülhə nail olub.

### *Sülhə aparan yol və yeni regional reallıqlar*

Prezident İlham Əliyev çıxışında xüsusi olaraq vurğulayıb ki, Azərbaycan bu gün artıq sülh şəraitində yaşayır və bu sülhün üstünlükləri artıq hiss olunmaqdadır. Ermənistanla əldə olunmuş sülh sazişinin paraflanmasından yeddi ay keçdiyini qeyd edən dövlət başçısı bildirib ki, bu müddət ərzində sərhədlərdə sabitlik hökm sürür və regionda yeni əməkdaşlıq imkanları yaranır.

Azərbaycanın sülhə sadiqliyinin konkret addımlarla sübut olunduğunu deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz Ermənistanla ticarət əlaqələrinin bərpasına başlayıb, bu ölkə üçün mühüm olan neft məhsullarının ixracını təmin edib və tranzit daşımalar üçün məhdudiyyətləri aradan qaldırıb.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan sülhə yalnız sənədlər üzərində deyil, real həyatda nail olub və bu, beynəlxalq ictimaiyyət üçün mühüm təcrübədir.

### *Enerji təhlükəsizliyi – qlobal sabitliyin əsas amillərindən biri*

Prezident İlham Əliyev çıxışında enerji təhlükəsizliyinin müasir dövrdə ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrildiyini qeyd edib. Azərbaycanın enerji siyasətinin uzunmüddətli sabitliyə və bazar balansının qorunmasına yönəldiyini bildirən dövlət başçısı vurğulayıb ki, ölkəmiz neft, qaz, elektrik enerjisi və neft-kimya məhsullarının istehsalı və ixracı ilə qlobal enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Qeyd olunub ki, hazırda Azərbaycan qazını 16 ölkə boru kəmərləri vasitəsilə alır və bu göstəriciyə görə Azərbaycan dünyada aparıcı mövqelərdən birini tutur. Ölkəmiz, həmçinin enerji bazarında sabit qiymətlərin qorunması və enerji bazarının balanslaşdırılması istiqamətində fəal mövqe nümayiş etdirir.

**Xəzəngül ORUCOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Qlobal Bakı Forumu Azərbaycanın strateji rolunu bir daha təsdiqləyir

Beynəlxalq tədbirlərin keçirildiyi Azərbaycan yenidən dünyanın diqqət mərkəzindədir. Martın 12-də Prezident İlham Əliyevin və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilən XIII Qlobal Bakı Forumunda dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak etdilər. Dünyanı sülhə, ədalətə səsləyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi illərdir, uğurlu fəaliyyəti ilə beynəlxalq əməkdaşlıq platformasına çevrilib.

Bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin vətəni – Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Azərbaycanın belə forumlara ev sahibliyi etməsi, ölkəmizə olan diqqət və etimadın, dövlətimizin başçısı İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir. XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: ***"Qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların – prezidentlərin, Baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər".***

Bu gün Azərbaycan mühüm söz sahibi kimi çıxış edərək beynəlxalq əməkdaşlığın gücləndirilməsinə töhfə verir. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi qələbə və ərazi bütövlüyünün bərpası ölkəmizə olan marağı daha da artırıb. Prezident İlham Əliyevin qətiyyətli liderliyi, etibarlı siyasəti və yaradılan əlverişli biznes mühiti Azərbaycanın beynəlxalq nüfuzunun və tərəfdaş ölkələrlə əməkdaşlıq imkanlarının durmadan genişlənməsini təmin edir. Təbii ki, belə bir şəraitdə ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan Qlobal Bakı forumları xarici qonaqlar üçün Azərbaycanla dialoqu inkişaf etdirmək, yeni əməkdaşlıq əlaqələri qurmaq baxımından mühüm imkandır. XIII Qlobal Bakı Forumunun ölkəmizdə keçirilməsi Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir.

**Aysel DÜNYAMALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## XIII Qlobal Bakı Forumu Azərbaycanın diplomatik güc mərkəzi kimi mövqeyini artırır

Martın 12-də dünyanın müxtəlif yerlərindən diqqətlər yenə də Azərbaycana yönəldi.

Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XIII Qlobal Bakı Forumunda dünyanın müxtəlif ölkələrindən gəlmiş dövlət və hökumət nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri və nüfuzlu alimlər iştirak edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə təşkil olunan bu forumun əsas məqsədi qlobal çağırışları müzakirə etmək, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və siyasi, iqtisadi, sosial problemlərin həlli yollarını araşdırmaqdır. Bu mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Hər il dünyanın müxtəlif ölkələrindən nüfuzlu şəxslərin iştirakı ilə keçirilən forum qlobal problemlər üzrə müzakirələrin aparıldığı əsas beynəlxalq platformalardan birinə çevrilib. XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: ***"Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik".***

Forumun məqsədi müxtəlif ölkələrdən dövlət və hökumət başçılarını, siyasətçiləri, alimləri və ekspertləri bir araya gətirərək beynəlxalq dialoqun inkişafına töhfə vermək, Azərbaycanı qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq platformaya çevirmək və ölkənin diplomatik mövqeyini gücləndirməkdir. Azərbaycan ev sahibi ölkə kimi qlobal məsələlərin müzakirəsinə töhfə verir və bu məsələlərdə vasitəçi rolunu oynayır. Forum çərçivəsində ölkələr arasında iqtisadi və siyasi əlaqələrin genişləndirilməsi üçün yeni əməkdaşlıq imkanları da yaranır. Etibarlı tərəfdaş, sülh və sabitlik naminə təşəbbüslərə ev sahibliyi edən Azərbaycanda reallaşan Qlobal Bakı Forumu dünyanı birləşdirən səmərəli platforma kimi dəyərləndirilir və yeni çağırışların müzakirəsinə şərait yaradır.

**Gülxarə TARVERDİYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*



# Naxçıvan: Azərbaycan və Türkiyə müttəfiqliyini möhkəmləndirən strateji körpü



Respublikamızın milli təhlükəsizlik və regional siyasətində xüsusi strateji əhəmiyyət daşıyan Naxçıvan Muxtar Respublikası coğrafi mövqeyi, tarixi, siyasi konteksti ilə həm də Azərbaycan-Türkiyə müttəfiqliyində vacib bir körpü funksiyasını yerinə yetirir. Unikal coğrafi mövqeyə malik muxtar respublika iki dövlət arasında nəqliyyat, ticarət, iqtisadiyyat və digər sahələr üzrə strateji əlaqələrin gücləndirilməsi üçün mühüm üstünlük yaradır. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan bu diyar həm də regionda təhlükəsizlik və sabitliyin qorunmasında ön xətt funksiyasını yerinə yetirir.

Məlum olduğu üzrə 2021-ci ilin iyul ayında imzalanmış Şuşa Bəyannaməsi ölkəmizin Vətən müharibəsindəki tarixi zəfərindən sonra yeni reallıqlar müstəvisində atdığı mütərəqqi addım olmaqla paralel, eyni zamanda Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın yeni mərhələsini başlatdı. Bəyannamədə hərbi əməkdaşlıq, təhlükəsizlik məsələləri və regional inteqrasiyanın gücləndirilməsi əsas prioritetlər kimi göstərilib. Naxçıvan isə bu əməkdaşlığın daha dərinləşməsi baxımından praktik açar rolunu oynayır. Belə ki, buradakı iki ölkənin birgə hərbi təlimləri Şuşa Bəyannaməsində nəzərdə tutulan strateji planların icrasına xidmət edir. Eyni zamanda ordular arasında koordinasiyanı artırır və regionda hərbi balansı gücləndirir. Bu baxımdan, ötən günlərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvana səfəri həm bölgədəki son hadisələrin, həm də Azərbaycan-Türkiyə hərbi-siyasi əlaqələrinin dəyərləndirilməsi, gələcək əməkdaşlığa dair istiqamətlərin müəyyənləşdirilməsində mühüm rol oynadı. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovun Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə “Bir millət, iki dövlət” anlayışı ilə əsrlərə dayanan dostluq və qardaşlıq münasibətlərimizin siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dərinləşməkdə olduğu vurğulandı.

Görüşdə də qeyd olunduğu kimi, Ümummilli Lider Heydər Əliyev və Türkiyə Respublikasının ozamankı Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə “Ümid” körpüsünün istifadəyə verilməsi və beləliklə də Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında Sədərək-Dilucu gömrük-keçid məntəqəsi vasitəsilə gediş-gəlişin təmin olunması Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında mühüm rol oynayıb. “Bir millət, iki dövlət” prinsipinə uyğun inşa olunan “Ümid” körpüsü həm də Azərbaycan-Türkiyə qardaşlığının, həmrəylik və qarşılıqlı etimadın simvolu kimi tarixə düşüb. Bu körpü yalnız coğrafi bağlantı yaratmayıb, eləcə də Azərbaycan-Türkiyə əməkdaşlığında Naxçıvanı açar regiona çevirib.

Naxçıvana səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahında olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Metin Tokel bölgədə sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi məqsədilə Türkiyənin daim Azərbaycanın yanında olduğunu və tarixi Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq istənilən hərbi yardımı göstərməyə hazır olduqlarını bildirib. Ordu generalı iki ölkə arasındakı münasibətlərin strateji və hərbi tərəfdaşlıq baxımından möhkəm təmələ sahib olduğunu söyləyib. Görüş zamanı, həmçinin birgə hərbi təlimlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılması ilə bağlı məsələlər müzakirə olunub. Bütün bunlar Azərbaycan-Türkiyə müttəfiqliyinin regional sülhə və təhlükəsizliyə xidmət etdiyini göstərməklə yanaşı, Naxçıvanın hər iki ölkənin yüksələn əlaqələrindəki strateji rolunu ortaya qoyur.

### *Naxçıvanda xalq-ordu birliyi: milli həmrəyliyin güclü nümunəsi*

Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da formalaşan, inkişaf edən xalq-ordu birliyi Vətən müharibəsində tarixi zəfərin əsas açarı sayılmaqla yanaşı, Azərbaycan dövlətçiliyinin güclənməsinin, regional sabitliyin və milli təhlükəsizliyin təmin olunmasının əsas dayağı hesab edilir. Bu birlik həm ordunun gücünü, həm də xalqın vətənpərvərlik ruhunu əks etdirir və Azərbaycanın gələcək inkişafında strateji rol oynayır. Son məlum hadisələr isə bir daha göstərdi ki, ölkəmizdə həmrəyliyin gücləndirilməsi məsələsində xüsusilə strateji mövqeyə malik olan Naxçıvan Muxtar Respublikası mühüm əhəmiyyət daşıyır.

Naxçıvan coğrafi və siyasi baxımdan həssas bölgə olduğuna görə burada güclü ordunun və vətənpərvər cəmiyyətin mövcudluğu regionun təhlükəsizliyi üçün hər zaman mühüm amil hesab olunur. Bu baxımdan, muxtar respublikada il ərzində keçirilən hərbi təlimlər, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, eləcə də hərbi hissələrlə cəmiyyət arasında qurulan sıx əlaqələr xalq-ordu birliyinin gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsinə xidmət edir. Naxçıvanda fəaliyyət göstərən Əlahiddə Ümumqoşun Ordu isə yalnız təhlükəsizliyin təminatçısı kimi deyil, eyni zamanda Azərbaycan dövlətinin qüdrətinin və xalqın sarsılmaz həmrəyliyinin rəmzi kimi çıxış edir. Məhz bu baxımdan, Daxili İşlər Nazirliyinin Daxili Qoşunların yaranmasının 34-cü ildönümünün Naxçıvanda yüksək səviyyədə qeyd olunması və tədbirdə xüsusilə şəhid ailələrinin, qazilərin iştirak etməsi xalq-ordu birliyinin daha da möhkəmləndiyini nümayiş etdirməklə yanaşı, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində atılan növbəti mühüm və əlamətdar addım kimi qiymətləndirilə bilər. Eyni zamanda bu tədbir Daxili Qoşunların Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin qorunmasında oynadığı mühüm rolu bir daha aydın şəkildə nümayiş etdirir.

Göründüyü kimi, bu gün Naxçıvan strateji mövqeyi və güclü müdafiə potensialı ilə həm Azərbaycanın ümumi təhlükəsizlik sistemində vacib rol oynayır, həm də Türkiyə ilə müttəfiqliyin daha da möhkəmləndirilməsi üçün əsaslı zəmin yaradır. Burada tarixən formalaşmış möhkəm xalq-ordu birliyi Naxçıvanı etibarlı qalaya çevirməklə yanaşı, ölkənin suverenliyinin qorunmasına və gələcək inkişafının təmin olunmasına xidmət edən mühüm milli dəyər kimi çıxış edir. Təqdirəlayiq haldır ki, bu gün Azərbaycanın dövlət siyasətində Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı, o cümlədən onun müdafiə potensialının gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin dediyi kimi: ***“Ümumiyyətlə, deyə bilərəm ki, Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan Ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur ”.***

**“Şərq qapısı”**



# Babək rayonunda su infrastrukturunun yenilənməsi: suvarıla bilən torpaqların 88 faizinin təminatı yaxşılaşdırılacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq olunub. Plana əsasən Babək rayonunda su təsərrüfatı infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçiriləcək. Belə ki, Naxçıvançayın sol sahilində Babək rayonunun ərazisinə xidmət edən hidrotexniki qurğular yenidən qurulacaq. Eyni zamanda çayın sağ sahilində yerləşən və rayonun əkin sahələrinin suvarılmasına xidmət edən hidrotexniki qurğular da əsaslı şəkildə bərpa ediləcək.

Bununla bağlı daha ətraflı məlumatı Babək Rayon İcra Hakimiyyətinin əməkdaşı Turan İmanovdan öyrəndik. O deyir ki,



xüsusilə rayonda susuzluğun aradan qaldırılması ilə bağlı görüləcək işlərə dövlətimizin diqqət və qayğısının bariz nümunəsidir. Artıq müvafiq layihələr hazırlanır və zəruri tədbirlər görülür. Əminik ki, ölkə başçısının qəbul etdiyi bu mühüm qərar Babək rayonunda əhalinin sosial rifahının yüksəldilməsinə, su təminatı ilə bağlı mövcud çətinliklərin aradan qaldırılmasına ciddi töhfə verəcək.

Müsahibimiz bildirdi ki, Tədbirlər Planına əsasən Naxçıvançayın sol sahilində Babək rayonuna xidmət edən hidrotexniki qurğular yenidən qurulacaq, çayın sağ sahilində yerləşən və rayonun əkin sahələrinin suvarılmasını təmin edən qurğular isə əsaslı şəkildə bərpa olunacaq. Həyata keçiriləcək tədbirlər nəticəsində rayon üzrə suvarıla bilən torpaqların 88 faizində suvarma təminatının yaxşılaşdırılması nəzərdə tutulur. Bu isə kənd təsərrüfatı istehsalının artmasına, su ehtiyatlarından daha səmərəli və qənaətli şəkildə istifadəyə geniş imkan yaradacaq. Bununla yanaşı, Babək şəhərində yeni içməli su təmizləyici qurğunun tikintisi planlaşdırılır. Layihənin icrası şəhər əhalisinin keyfiyyətli və dayanıqlı içməli su ilə təminatını daha da yaxşılaşdıracaq.

Tədbirlər Planı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan əsas layihələr barədə məlumat verən müsahibim bildirir ki, Babək rayonunda su təsərrüfatının yenilənməsi və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı işlər görüləcək. Bu çərçivədə "Araz-1" və "Araz-2" nasos stansiyalarının bərpası, eləcə də boru xətlərinin yenilənməsi, Nehrəm su anbarına gedən və çıxış kanallarının yenidən qurulması, Heydər Əliyev su anbarına suyun vurulması üçün yeni nasos stansiyasının tikintisi kimi mühüm layihələr reallaşdırılacaq. Bundan əlavə, Arazkənd kəndi və Nehrəm qəsəbəsinə gedən kanalların modernləşdirilməsi, "Köprəm", "Pircuvar" və "Məzrə" kanallarının yenidən qurulması, Qaraqala, Kalbaoruc Dizə və Məmmədrza Dizə kəndlərinə yeni suvarma xətlərinin çəkilməsi, "Cəhri-1" və "Cəhri-2" nasos stansiyalarının bərpası, "Dəlmə" kanalının modernləşdirilməsi, həmçinin Aşağı Uzunoba və Yuxarı Uzunoba kəndlərinə gedən su xətlərinin yenilənməsi, Şıxmahmud və Xəlilli kəndlərinə gedən kanalların təkmilləşdirilməsi də plana daxildir.

Turan İmanovun sözlərinə görə, atılan addımlar həm mövcud su infrastrukturunun yenilənməsini təmin edəcək, həm də gələcək illər üçün etibarlı və davamlı su təminatının formalaşdırılmasına xidmət edəcək. Həyata keçiriləcək tədbirlər Babək rayonunda su ehtiyatlarının səmərəli idarə olunmasına, kənd təsərrüfatının və ümumilikdə, regionun sosial-iqtisadi inkişafının gücləndirilməsinə mühüm töhfə verəcək.

Babək rayonunun təsərrüfat sahiblərinin də fikirlərini öyrəndik. Mahir Niyazov deyir ki, bütün təsərrüfat adamları yaxşı bilir ki, məhsulun hasil olmasında suvarmanın əhəmiyyəti



çox vacibdir. Sahələrdə suvarma işləri vaxtında aparılan zaman məhsul istehsalının artması və məhsuldan gələn gəlir də ürəkaçan olur. O əlavə edib ki, quraqlıq dövründə yağıntının az olması məhsuldarlığa ciddi təsir göstərir və torpaqda şoranlaşma hallarını artırır. Su təminatı yaxşılaşdırılarsa, biz də daha çox əkin apara, təsərrüfatlarımızı genişləndirəcəyik.

İnanırıq ki, cənab Prezidentin müvafiq Sərəncamı ilə susuzluq problemi mərhələli şəkildə aradan qaldırılacaq. Bu qərar biz təsərrüfatçılar üçün böyük ümid və sevinc yaradıb. Uzun illərdir, yaşanan su qıtlığı əkin sahələrimizin genişləndirilməsinə, məhsul istehsalının artırılmasına ciddi mane olurdu. Yeni Sərəncam isə həm mövcud çətinliklərin həllinə, həm də gələcək planlarımızın reallaşmasına geniş imkanlar açır. Biz təsərrüfatçılar olaraq göstərilən diqqət və qayğıya görə minnətdarıq.

Aldığımız məlumatlardan da aydın olur ki, Babək rayonunda su təsərrüfatı infrastrukturunun yenilənməsi üzrə nəzərdə tutulan genişmiqyaslı layihələr bölgənin sosial-iqtisadi inkişafına əhəmiyyətli təkan verəcək. Həm əkin sahələrinin suvarma imkanlarının genişlənməsi, həm də içməli su təchizatının yaxşılaşdırılması rayon əhalisinin həyat səviyyəsinin yüksəlməsinə, kənd təsərrüfatının dayanıqlı inkişafına və regionun gələcək potensialının gücləndirilməsinə mühüm töhfə olacaq.

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi 2026-2030-cu illəri əhatə edən Tədbirlər Planı Naxçıvanda su ehtiyatlarından daha səmərəli istifadəni və suvarma sistemlərinin mərhələli şəkildə təkmilləşdirilməsini nəzərdə tutur. Sərəncama əsasən "Qaraçuq-1" nasos stansiyasının və həmin stansiyadan qidalanan mövcud hidrotexniki qurğuların yenidən qurulması istiqamətində mühüm layihənin icrasına start verilib. Yenidənqurma layihəsi çərçivəsində nasos avadanlıqlarının modernləşdirilməsi, enerji effektivliyinin artırılması, su ötürücü xətlərin bərpası və hidrotexniki qurğuların dayanıqlılığının gücləndirilməsi nəzərdə tutulur. Bu və digər suallarımızı Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin baş mühəndisi Ayxan Həsənov cavablandırır.*

# Sərəncamdan icraya: "Qaraçuq-1" nasos stansiyasında yenidənqurma prosesi aparılacaq



***– "Qaraçuq-1" nasos stansiyasının Tədbirlər Planına daxil edilməsi hansı zərurətdən irəli gəlib?***

– Məlumat üçün qeyd edim ki, Araz su anbarından qidalanan "Qaraçuq-1" nasos stansiyası 1969-cu ildə istismara verilmiş mühüm hidrotexniki qurğulardan biridir və uzun illər ərzində regionda suvarma infrastrukturunun əsas dayaqlarından biri kimi fəaliyyət göstərmişdir. Lakin ötən müddət ərzində fasiləsiz istismar nəticəsində nasos stansiyasında quraşdırılmış aqreqatlar köhnəlmiş, onların istismar müddəti faktiki olaraq başa çatmışdır. Bu isə, öz növbəsində, faydalı iş əmsalının azalmasına, enerji sərfiyyatının artmasına və ümumi istismar xərclərinin yüksəlməsinə səbəb olmuşdur. Nəzərə alsaq ki, "Qaraçuq-1" nasos stansiyası yalnız bir mənbə kimi deyil, eyni zamanda Qaraçuq magistral kanalının və həmin sistemə bağlı digər nasos stansiyalarının su ilə təminatında mühüm rol oynayır, mövcud texniki vəziyyət suvarma prosesinin dayanıqlılığı baxımından müəyyən çətinliklər yaradır. Xüsusilə vegetasiya dövründə suya tələbatın artdığı vaxtlarda mövcud gücün məhdudluğu daha qabarıq hiss olunur və xidmət etdiyi torpaq sahələrinin suvarma suyu ilə təminatında fasilələr və qeyri-bərabərliklər yaranır. Qarşıya qoyulan əsas hədəf layihə gücünü artırmaq, avadanlıqları müasir və səmərəli nasos aqreqatları ilə əvəz etmək, eyni zamanda sistemin etibarlılığını yüksəltməkdir. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması nəzərdə tutulur. Ümumilikdə, nasos stansiyasının yenidən qurulması və gücünün artırılması regionda su ehtiyatlarından daha səmərəli istifadə edilməsinə, meliorasiya və irriqasiya sistemlərinin dayanıqlığının gücləndirilməsinə, həmçinin aqrar sektorun inkişafına mühüm təsir göstərəcəkdir.

***– Layihə nəticəsində neçə hektar torpaq daha sabit su təminatı ilə əhatə olunacaq?***

– Mövcud texniki vəziyyət və avadanlıqların köhnəlməsi fonunda həmin ərazilərdə su təminatının dayanıqlığının zəifləməsi, xüsusilə vegetasiya dövründə suya olan tələbatın tam ödənilməsində çətinliklərin yaranması layihənin həyata keçirilməsini zəruri etmişdir. Layihə çərçivəsində "Qaraçuq-1" nasos stansiyasının və ondan qidalanan mövcud hidrotexniki qurğuların yenidən qurulması nəticəsində, ümumilikdə, 12 571 hektar torpaq sahəsinin daha sabit və etibarlı su təminatı ilə əhatə olunması nəzərdə tutulur. Layihə üzrə planlaşdırılan işlər yekunlaşdırıldıqdan sonra qapalı boru şəbəkəsi vasitəsilə suyun ayrınc nöqtələrdən verilməsi su itkilərinin minimuma endirilməsinə və su ehtiyatlarından daha səmərəli istifadəyə imkan yaradacaqdır. Bu baxımdan, fermerlərin mütərəqqi suvarma üsullarından istifadəyə təşviq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün mütəmadi maarifləndirmə tədbirlərinin, təbliğat-təşviqat kampaniyalarının və praktiki təlimlərin təşkili vacibdir. Nəticədə, həm su resurslarına qənaət ediləcək, həm də kənd təsərrüfatı istehsalında səmərəlilik daha da yüksələcəkdir.

***– "Qaraçuq-1" layihəsi gələcəkdə digər hidrotexniki qurğular üçün model rolunu oynaya bilərmi?***

– 2022-2023-cü illərdə "Qaraçuq-1" nasos stansiyasının və ona aid təzyiqli boru xəttinin yenidən qurulması istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, beton dayaqlar üzərində nasos stansiyası üçün estakada tikilmiş, diametri 1016 mm olan 1394 metr uzunluğunda metal boru kəməri çəkilmiş, ikinci nasos stansiyası üçün həcmi 1000 m³ olan suqəbuledici hovuz inşa edilmişdir. Eyni zamanda hər biri 1500 litr/saniyə gücünə malik 3 ədəd nasos aqreqatı, müasir elektrik avadanlıqları, diametri 1016 mm olan 4000 metr uzunluğunda metal borular və digər zəruri texniki avadanlıqlar alınaraq layihənin icrasına hazır vəziyyətə gətirilmişdir. "Qaraçuq-1" layihəsi gələcəkdə digər hidrotexniki qurğuların yenidən qurulması və modernləşdirilməsi üçün model rolunu oynaya biləcək əhəmiyyətli layihələrdən biridir. Bu layihənin həyata keçirilməsində əsas məqsədlərdən biri də məhz mövcud suvarma infrastrukturunun kompleks şəkildə rekonstruksiya olunması, nasos stansiyalarının layihə gücünün artırılması və suvarma prosesinin daha mütəşəkkil, dayanıqlı və səmərəli təşkili üçün nümunəvi mexanizmin formalaşdırılmasıdır. Nasos stansiyasından qidalanan hidrotexniki qurğuların mərhələli şəkildə yenilənməsi nəticəsində suvarma sisteminin etibarlılığı artırılacaq, su itkiləri minimuma endiriləcək və enerji səmərəliliyi yüksəldiləcəkdir. Bu isə gələcəkdə digər oxşar layihələrin icrasında tətbiq oluna biləcək müasir yanaşmaların və texniki həllərin formalaşmasına imkan verəcəkdir.

**"Şərq qapısı"**





# Naxçıvanın “yaşıl enerji” strategiyası: iqtisadi və ekoloji əhəmiyyəti

***Naxçıvan Muxtar Respublikasında son illərdə “yaşıl enerji” sahəsində ardıcıl və məqsədyönlü addımlar atılaraq regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsi təmin edilmişdir. Coğrafi mövqeyi və təbii resursları Naxçıvanı bərpa olunan enerji layihələri üçün əlverişli bir mərkəzə çevirib. Bu strategiyanın əsas məqsədi yalnız enerji təminatı deyil, həm də iqtisadi inkişafın gücləndirilməsi və ekoloji tarazlığın qorunmasıdır.***

**“Yaşıl enerji”**

“Yaşıl enerji” strategiyasının əsas sütunlarından biri su enerjisidir. Xüsusilə Araz Su Elektrik Stansiyası Naxçıvan üçün strateji əhəmiyyət daşıyır. Bu SES Araz çayı üzərində yerləşərək həm elektrik enerjisi istehsal edir, həm də bölgənin iqtisadi baxımdan inkişafına töhfə verir. Su elektrik stansiyaları yalnız enerji istehsal etmir, eyni zamanda ətraf mühitə minimal təsir göstərir və karbon tullantısını azaldır. Kiçik su elektrik stansiyaları isə kənd və rayonların fasiləsiz enerji ilə təmin olunmasına imkan yaradır, bu da yerli iqtisadiyyatın dayanıqlığını artırır.

Naxçıvanda günəşli günlərin çoxluğu günəş enerjisinin genişləndirilməsi üçün böyük imkanlar yaradır. Günəş panellərinin quraşdırılması və müasir texnologiyaların tətbiqi enerji istehsalının şaxələndirilməsinə xidmət edir, həmçinin ekoloji dayanıqlılıq təmin olunur. “Yaşıl enerji” layihələrinin genişlənməsi nəticəsində region karbon izini azaldır və ekoloji tarazlığın qorunmasına ciddi töhfə verir.

Naxçıvan Muxtar Respublikası zəngin günəş və su potensialı ilə yanaşı, külək enerjisi baxımından da əlverişli təbii şəraitə malikdir. Bölgənin dağlıq relyefi və açıq ərazilərində müşahidə olunan sabit hava axınları külək turbinlərinin səmərəli işləməsi üçün imkan yaradır. Külək enerjisi bərpa olunan və ekoloji cəhətdən təmiz enerji mənbəyi kimi atmosferə zərərli qazların buraxılmasını azaltmağa xidmət edir. Bu isə karbon tullantısının azalmasına və ətraf mühitin qorunmasına mühüm töhfə verir.

**Enerji infrastrukturu və texnoloji yeniliklər**

Naxçıvanda elektrik şəbəkələrinin yenilənməsi, yeni yarımstansiyaların qurulması və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi “yaşıl enerji” strategiyasını daha da möhkəmləndirir. Bu texnoloji addımlar enerji itkilərinin azalmasına və enerji təchizatının sabitləşməsinə imkan verir, nəticədə, regionun sosial-iqtisadi inkişafı sürətlənir.

**İqtisadi və ekoloji əhəmiyyət**

“Yaşıl enerji” Naxçıvan üçün təkcə ekoloji məsələ deyil, eyni zamanda iqtisadi əhəmiyyətə malikdir. Alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi bölgədə iş yerlərinin yaradılmasına, sənaye və kənd təsərrüfatının inkişafına, həmçinin enerji idxalından asılılığın azalmasına səbəb olur. Ekoloji baxımdan isə su və günəş enerjisi karbon tullantısını minimuma endirir, təbii resursların davamlı istifadəsini təmin edir və gələcək nəsillər üçün sağlam ətraf mühit yaradır.

Bütün bu tədbirlər göstərir ki, Naxçıvan “yaşıl enerji” strategiyası ilə yalnız enerji müstəqilliyini təmin etmir, həm də iqtisadi və ekoloji baxımdan dayanıqlı inkişaf yoluna çıxır. Su və günəş enerjisindən səmərəli istifadə regionun gələcək nəsillər üçün davamlı enerji təminatını və ekoloji sabitliyini təmin edir. Naxçıvanda bu sahədə atılan addımlar nümunəvi bir model təşkil edir.

**Sahil ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin Elektrik və elektronika mühəndisliyi ixtisası üzrə III kurs tələbəsi, “yaşıl enerji” könüllüsü*

## Naxçıvanda əhali üçün komfortlu alış-veriş və əyləncə mühiti yaradılacaq



Naxçıvan şəhərində müasirtipli ticarət mərkəzi inşa edilir. İnşa olunan ticarət mərkəzində müxtəlif mağazalar, iaşə obyektləri və digər xidmət sahələrinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Tikintisi “Bakstone Construction MMC” tərəfindən həyata keçirilən layihənin sahə rəisi Nizami Əzizovun verdiyi məlumata görə, binanın ümumi sahəsi 6144,9 m², tikinti sahəsi isə 1785,9 m² təşkil edir. Obyektin icarəyə verilə bilən sahəsi 1625 m² olacaq. Layihə gücü gündəlik orta hesabla 1000 nəfərdən çox ziyarətçi qəbul etməyə imkan verəcək. Tikintiyə 15 dekabr 2025-ci ildən etibarən başlanılıb, işlər mərhələli şəkildə aparılır və tikintinin, ümumilikdə, 300 iş gününə başa çatdırılması planlaşdırılır. Layihənin əsas məqsədi bölgədə müasir ticarət və əyləncə infrastrukturu yaratmaq, yeni iş yerləri açmaq və əhalinin rahat alış-veriş imkanlarını genişləndirməkdir.





Binanın konstruksiya sistemi monolit dəmir-beton karkas sistemində layihələndirilib. Daşıyıcı sistem sütun, rigel və monolit örtükdən ibarətdir. Ticarət mərkəzinin bünövrəsi isə torpaq şəraitinə uyğun olaraq lentvari tipdə icra olunur. Nizami Əzizovun sözlərinə görə, layihə Azərbaycan Respublikasının qüvvədə olan tikinti norma və qaydalarına tam uyğun hazırlanıb. Hesablamalar seysmik zonaya uyğun aparılıb, konstruksiya elementləri isə zəlzələ yüklərinə qarşı dayanıqlıdır. Obyektdə müasir yanğınsöndürmə və xəbərdarlıq sistemi, mərkəzləşdirilmiş havalandırma və kondisionerləşdirmə sistemi, “ağıllı” işıqlandırma, təhlükəsizlik kameraları, lift və eskalator sistemləri nəzərdə tutulub. Bundan əlavə, LED işıqlandırma sistemi, istilik izolyasiyalı fasad və pəncərələr, enerjiyə qənaət texnologiyaları, həmçinin yağış sularının idarə olunması sistemi quraşdırılacaq.

Bu layihə Naxçıvanın inkişafına və sakinlərin həyat keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcək. Müasir standartlara cavab verən ticarət mərkəzi bölgənin iqtisadi potensialını artırmağa və yerli əhali üçün daha komfortlu alış-veriş və əyləncə mühiti yaratmağa xidmət edəcək.

## Naxçıvanda vergi daxilolmaları 3,9 faiz artıb



Cari ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 34,8 milyon manata yaxın vergi daxil olub.

Dövlət Vergi Xidmətindən bildirilib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 3,9 faiz və ya 1,3 milyon manat çoxdur.

Qeyri-dövlət sektorundan daxilolmalar 25,5 milyon manat təşkil edib. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 3,7 milyon manat və ya 16,9 faiz artıb.

Ödənilən vergilərin 73,4 faizi qeyri-dövlət sektorunun, 26,6 faizi isə dövlət sektorunun payına düşüb. Bundan başqa, 2026-cı ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 676,8 min manata yaxın olub.

## Şərurda kartof əkininə başlanılıb

Gündəlik qida məhsulları sırasında kartof ikinci çörək sayılır. Bu sahədə yaxşı təcrübə qazanan kənd əməkçiləri ilbəil əkin sahələrini genişləndirir, məhsuldarlığı artırırlar. Muxtar respublikanın ən böyük aqrar bölgəsi olan Şərurda kartof əkininə başlanıb. Artıq 154 hektar sahədə kartof əkilib. Qabaqcıl texnologiyalardan və məhsuldar toxum sortlarından istifadə bu il də daxili bazarın yerli kartof məhsulu ilə təminatına zəmanət verir. Həmçinin əkinçinin ən böyük problemi sayılan suvarma infrastrukturunun yenilənməsi istiqamətində başladılan işlər torpaq mülkiyyətçilərini daha da həvəsləndirib. Bu il əkinin 430 hektardan artıq olacağı proqnozlaşdırılır.



# 50 illik ömrün 120 yaşlı yubileyi

## Səməd Vurğun, Naxçıvan fotoları və tənqidə tuş gələn ömür



Azərbaycanın ilk Xalq şairi, saymaqla bitməyən külliyyat və 50 illik ömür... Nə idi Səməd Vurğunu Azərbaycan ədəbiyyatına bu qədər sevdirən? Azərbaycan ədəbiyyatını və sözün dəyərini daim diqqət mərkəzində saxlayan dövlət başçısı İlham Əliyevin Azərbaycanın ilk "Xalq şairi" adına layiq görülmüş şairi, dramaturq Səməd Vurğunun 120 illik yubileyi ilə bağlı Sərəncamı Azərbaycan ədəbiyyatsevərləri üçün gözlənilən xəbər idi. Səməd Vurğunla bağlı internet resurslarında araşdırma apararkən çoxlu sayda maraqlı məqalələr və daha çox eynitipli məlumatlar qarşımıza çıxır. Səməd Vurğunun adı çəkiləndə, bəlkə də, ağıllarda ilk olaraq bir sual canlanır. Uşaqlıqdan bəri dilimizdə əzbər olan məşhur "Azərbaycan" şeirinin müəllifi Səməd Vurğunun Sovet Sosialist Respublikalar İttifaqı dövründə necə oldu ki, repressiya adlı burulğanda açdığı yelkən onun söz gəmisini həmin dəhşətli dalğalardan xilas etməyi bacardı. Yadımdadır... 2 il bundan əvvəl Bakı şəhərində yerləşən Siyasi Repressiya Qurbanları Muzeyində olarkən yaşlı muzey bələdçisinə bir sual vermişdim... "Deyirlər ki, Mikayıl Müşfiq, Əhməd Cavad kimi şairlərin repressiyaya qurban getməsində Səməd Vurğun, Rəsul Rza və digər şairlərin rolu olub, bu doğrudur?" Cavabında isə bu cür faktların real sənədlərə əsaslanmadığı qeyd edildi... Bəzən deyirlər, "Bəs Səməd Vurğun nə üçün repressiyaya qurban getmədi?" Bəlkə də, şairin bu burulğandan xilas olması Vətəninin adını və dilini uzun müddət yaşatmaq üçün idi, nə bilmək olar?

Şairin poeziyasına nəzər saldıqda, gah özünün "nə tez qocaldığından" bəhs etdiyini, gah da uşaq yaşlarında anasının dünyadan köçməsi ilə bağlı dərin kədər hissini bildirdiyini oxuyur və eyni hisslərə bir növ şərik oluruq. Çoxumuz bəzən sevgi hissinə qapılarkən özümüzü dahi Nizaminin Məcnununa tay tuturuq. Elə həmin əsəri bizim dilə çevirərək örnək sevgi anlayışını yaradan şair də məhz Səməd Vurğundur…

Səməd Vurğunla bağlı araşdırma aparakən şair Mikayıl Müşfiqlə Səməd Vurğunun dəniz gəzintisindəki bir fotosu qarşıma çıxdı. Foto 1936-cı ildə çəkilmişdi. Yəni gənc şair Mikayıl Müşfiqin vəfatından 2 il əvvəl. Nə bilmək olar, bəlkə də, bu foto şairin öz dostunu itirdikdən sonra əlində qalan son, mənim isə şair haqqında tapdığım ilk maraqlı fotolardan idi. Elə həmin fotolara olan marağım məni Naxçıvan Ədəbiyyat Muzeyinin arxiv fonduna yollanmağa vadar etdi. Arxivi araşdırarkən Səməd Vurğunun vəfatından dörd il öncə, yəni 1952-ci ildə Naxçıvana səfər etdiyini öyrənirik. Maraqlı fotolar qarşımıza çıxdıqca insanın üzündə gah qəribə bir gülümsəmə, gah da təəssüf və kədər yaranır. Şairin Naxçıvandakı kolxozçu qadınlarla söhbətləşdiyi anda çəkilmiş bir foto insanın diqqətini özünə çəkir. Səmimi gülümsəmələr, maraqlı bir söhbət...



**Soldan: İ.Səfərli, Ə.Ələkbərov, S.Vurğun**



**Səməd Vurğun və Hüseyn İbrahimov**





Bundan başqa, Naxçıvanda doğulmuş nəğməkar şair İslam Səfərlinin müəllifi olduğu "Göz həkimi" əsəri tamaşaya qoyularkən aparılan hazırlıq işləri zamanı çəkilən fotolar da öz səmimiyyətini bugünkü kimi hələ də qorumaqdadır. Ədəbiyyat muzeyinin arxivində saxlanılan həmin fotoların birində İslam Səfərli, Səməd Vurğun və aktyor Ələsgər Ələkbərov tamaşa hazırlıqları zamanı əks olunublar. Eyni foto ilə bağlı internet resurslarında araşdırma apararkən eyni məkanda çəkilmiş digər bir foto da qarşımıza çıxır. Bu dəfə fotoda, eyni zamanda Azərbaycan teatr və kino rejissoru, aktyor Adil İsgəndərovun da həmin məkanda olduğunu görür, məkanın Bakı Akademik Milli Dram Teatrı, tarixin isə 1955-ci il olduğunu öyrənirik. Bundan əlavə, araşdırma zamanı 1952-ci ildə şairin Naxçıvana səfəri zamanı Naxçıvanda hərbçilərlə görüşdüyü foto da qarşımıza çıxır. Hərbçilərin üzündə həzin bir təbəssüm və birinin əlində gül dəstəsinin olduğunu görmək mümkündür. Həmin fotoda sanki barıt və söz eyni anda bir-biri ilə həmsöhbət olur. Naxçıvan Ədəbiyyat Muzeyinin birinci mərtəbəsi ilə tanış olarkən divardan asılmış fotoların birində şair Səməd Vurğunun öz qələm dostu, naxçıvanlı yazıçı Hüseyn İbrahimovla birgə fotosunun olduğunu görürük. Eyni foto arxiv fondunun fotoları içərisində də qarşımıza çıxır. Bu dəfə fotonun daha bir detalı olan çəkilmə tarixini də öyrənirik – 1954-cü il... Muzeyin arxivindəki və divarlarındakı fotolara nəzər saldıqda birdən-birə xəyalımda akademik Yusif Məmmədəliyevin Ordubad şəhərində yerləşən ev-muzeyinin divarından asılmış fotolar düşür. Bəzi fotolarda şair Səməd Vurğun və akademik Yusif Məmmədəliyevin yaxın dost olduğu aydın şəkildə görünür...

Bütün bu faktlar, fotolar və xatirələr bir həqiqəti açıq şəkildə ortaya qoyur: Səməd Vurğun təkcə şeirləri ilə deyil, yaşadığı dövrün bütün ağrılarını, ziddiyyətlərini və susdurulmuş səslərini öz taleyində daşıyan bir simadır. Onun 50 illik ömrünün bu gün 120 yaşlı yubiley kimi qeyd olunması da təsadüf deyil. Çünki zaman hər şeyi köhnəldə bilir, amma sözü yox. Repressiya burulğanından sağ çıxması kimlər üçün sual, kimlər üçün qınaq doğurursa doğursun, Səməd Vurğun həmin dövrdə Azərbaycan dilinin, milli ruhun və poeziyanın yaşaması üçün bir körpü rolunu oynadı. O körpüdən keçən söz bu gün də yaşayır, oxunur, müzakirə olunur. Bəlkə də, məhz buna görə Səməd Vurğun həm ən çox sevilən, həm də ən çox mübahisə olunan şair olaraq qalır. Çünki o yalnız öz dövrünün deyil, bütün zamanların suallarını da özü ilə aparan bir ömür idi. Və bu ömür, yarımçıq qalsa da, sözlə tamamlandı.

**✍ Rafiq TƏHMƏZ**

# Əlli ildə əbədiyyət



Ölkə başçısı Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzalayıb. Demək olar ki, bütün ədəbiyyatsevər və Səməd sevərlərin gözlədiyi bu Sərəncam özünü heç də gecikdirmədi. Çoxları onu tənqid etsə də, tarix sübut etdi ki, o, fədakar bir şair olub. Elinə, obasına, Vətəninə bağlı olub. Zəhmətkeş, fədakar və isti ürəyi olan Səməd Vurğun cəmi əlli il yaşasa da, əbədiyyətə bütöv bir xalq tərəfindən uğurlandı. Sözlə yaşadı, sözlə uğurlandı əbədiyyətə. Çünki o, sözlə dağları, daşları səslədi. Sözlə kəndlə şəhər arasında körpülər saldı. Sözlə sevildi, sözlə yaşadı, sözlə yaşatdı.

Onun qələmindən çıxan hər şeir bir ürək döyüntüsü idi. Gah gur, gah titrək, gah da qırılacaq qədər incə. Onun misralarında söz elə ucalırdı idi ki, hər misrası bir ümid, hər bəndi bir ana laylası kimi Vətənin qucağında böyüyürdü. Bu misraları oxuyan hər kəs öz qəlbində gizlətdiyi ən incə duyğunu tapdı.

Şair üçün Vətən də bir sevgili idi. Həm də ən böyük sevgili. Onun dağları saçlar kimi dalğalı, çayları sözlər kimi gur, çölləri ürək kimi geniş açılırdı. Bəlkə də, buna görə idi ki, şairin Vətənə yazdığı hər misra torpağa əkilən duaya çevrilərək xalqın dilində bitdi.

Cəmi əlli il. Bəziləri üçün yarım əsr. Onun üçün isə bir əbədiyyət. Bu gün ən yüksək tribunalardan onun şeiri eşidiləndə, müəllimlər onun misrasını lövhəyə yazanda, ana öz körpəsinə onun şeirini zümzümə edəndə Vurğun yenidən doğulur. Qəlbi yorulsa da, dili sussa da, misraları ayaqda qaldı şairin. Bəlkə də, əbədiyyət məhz budur. Xalqın yaddaşında yaşamaq. Bu sevgi bu günə qədər nə susur, nə sönür, nə də ki azalır. O gah bir çağırış kimi, gah incə bir duyğu kimi, gah da sevgi dolu bir etiraf kimi damarlarımızda dolaşır. Hər dəfə onun adını çəkəndə anlayırıq ki, ona olan vurğunluğumuz heç zaman bitməyəcək.

Yusif Səmədoğlu 1957-ci ildə yazırdı: "Bizim evdə bir otaq var. Əvvəllər bu otağın axşam səkkizdən yanan işığı bəzən səhərə qədər sönmürdü. İndi isə artıq bir ilə yaxındır ki, o otağın pəncərələrindən işıq gəlmir. Bu otaq atamın kabinetidir. Burada hər şey – uzun və enli yazı stolu, stolun üstündəki qələm və kağızlar, divarlar boyu qoyulmuş şkafların rəflərindəki kitablar, hər şey, hər şey bizə son dərəcə əzizdir..."

O otaqda indi böyük bir coşqu var. Kitabların tozlu səhifələri arasında hər kəsdən qaçıb gizlənərək hamı olmuş bir coşqu. Sanki bir azdan qapı açılacaq, o, yenə içəri girəcək, lampanı yandıracaq və gecə ilə səhər arasında yeni bir şeir doğulacaq.

**Fariz ƏHMƏDOV**
*Naxçıvan televiziyasının baş redaktoru*

# Torpaq oyanırsa, deməli, həyat yenidən başlayır






Novruzun müjdəçiləri olan dörd çərşənbənin sonuncusu – Torpaq çərşənbəsi gəlib çatdı. Qışın soyuq səssizliyi yerini baharın ılıq nəfəsinə verdiyi bu zamanda kainatın ən gözəl oyanışı baş verir. Su gəldi, Od yandı, Yel əsdi və budur, indi növbə hər şeyin anası olan Torpağındır. Torpaq çərşənbəsi o yatmış hisslərin, donmuş ümidlərin və mürgüləyən təbiətin ayağa qalxışıdır. Bu gün ana torpaq qışın ağır yuxusundan ayılır, bağrına yığılan hərarətlə isinir və insanlığa dirilişin muştuluğunu verir. Əcdadlarımızın inancına görə, məhz bu gün torpaq nəfəs almağa başlayır, damarlarındakı su canlanır və o hər bir toxumu, hər bir kökü yuxudan oyadır.

Naxçıvanın qədim guşələrində, əsasən, bir sıra rayonlarında Novruzun ən çox sevilən ərəfəsi olan İlaxır çərşənbə "Yeddiləvin" adlanır. Yeddiləvin zamanı oğlan evi qız evinə şirni apararkən orada şirninin müxtəlif növlərindən olur. Buna görə də şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddilövün", "yeddiləvin" adı veriblər. "Yeddiləvin" günü süfrələrə cürbəcür nemətlər düzülür. Bu nemətlər, əsasən, 7 adda olmalıdır. Belə ki, bu adət Azərbaycanın başqa regionlarında da özünü göstərməkdədir. Bəzi yerlərdə "7" ləvinə "7" sin də deyirlər. Yeddiləvin axşamı tonqallar qalanır. Əhalinin bayram şənliyini və sevincini ifadə edən ən möhtəşəm tonqal dağların uca nöqtəsində yandırılır. Bu uca ocaqlar qaranlıq gecəni aydınladaraq baharın gəlişini bütün dünyaya bəyan edir.

Həyətlərdə qalanan tonqalların alovu göylərə yüksəldikcə qışın da qəmi-kədəri o alovda yanıb kül olur. İnsanlar ocağın üzərindən atılarkən həm də mənəvi bir təmizlənmədən keçirlər. Hər evdən yüksələn səməni qoxusu, süfrələri bəzəyən şəkərbura, paxlava, digər şirniyyatların ətri və qazanlarda dəm alan plovun buxarı bərəkətin rəmzinə çevrilir. Qapıpusmalar, fal baxmalar, bayramlaşmalar hamısı eyni bir arzunun təzahürüdür, sevgi və birliyin. Bu çərşənbə həm də barışıq günüdür, əslində. Torpaq bütün çirkinlikləri öz bağrına basıb onları rəngli çiçəklərə çevirdiyi kimi, biz də qəlbimizdəki incikliyi torpağa tapşırıb bahar təravəti ilə yenilənirik. Səməninin yaşıllığı torpağın sevincidir, açan ilk çiçək isə onun dünyaya təbəssümüdür. Bu gün yerlə göyün qovuşduğu, təbiətin insanla birgə nəfəs aldığı andır. Qoy bu oyanış hər birimizin ruhuna sığal çəksin, süfrələrimizdən ruzi, qəlbimizdən isə mərhəmət əskik olmasın. Torpaq oyanırsa, deməli, həyat yenidən başlayır.

✍ **Elnurə CƏFƏROVA**







**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedralar üzrə müsabiqə elan edir**

**Dekan vəzifəsini tutmaq üçün**

1. Tibb fakültəsi
2. Beynəlxalq münasibətlər və hüquq fakültəsi

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrası
2. İngilis dili və tərcümə kafedrası
3. Klinik fənlər və hərbi tibb kafedrası
4. Stomatologiya kafedrası
5. Avropa dilləri kafedrası
6. Ümumi hüquq kafedrası
7. Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrası
8. Memarlıq
9. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası

**Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün**

1. İqtisadiyyat və marketinq kafedrası – dosent – 1 yer, müəllim – 1 yer, müəllim – 1 yer (0,5 ştat)
2. Mühasibat və maliyyə kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)
3. Bələdiyyə və turizm kafedrası – dosent – 1 yer, dosent – 1 yer (0,5 ştat), müəllim – 1 yer
4. Elektronika və informasiya texnologiyaları kafedrası – dosent – 1 yer (0,5 ştat), müəllim – 3 yer, müəllim – 1 yer (0,5 ştat)
5. Elektroenergetika mühəndisliyi kafedrası – müəllim – 1 yer
6. Meliorasiya və ekologiya mühəndisliyi kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
7. Nəqliyyat mühəndisliyi və texniki fənlər – baş müəllim – 2 yer, baş müəllim – 1 yer (0,5 ştat)
8. Memarlıq kafedrası – dosent – 1 yer (0,5 ştat)
9. Azərbaycan dilçiliyi kafedrası – professor – 1 yer
10. Azərbaycan tarixi kafedrası – professor – 1 yer (0,5 ştat), dosent – 2 yer, dosent – 1 yer (0,5 ştat)
11. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – dosent – 1 yer (0,5 ştat)
12. Sosial və ictimai münasibətlər kafedrası – professor – 1 yer (0,5 ştat)
13. Ümumi və nəzəri fizika kafedrası – dosent – 1 yer (0,5 ştat), müəllim – 2 yer (0,5 ştat)
14. İnformatika kafedrası – müəllim – 1 yer
15. Ümumi riyaziyyat kafedrası – baş müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer (0,5 ştat)
16. Məşqçilik kafedrası – professor – 1 yer, dosent – 1 yer
17. Kimya kafedrası – dosent – 1 yer
18. Biologiya kafedrası – dosent – 3 yer, baş müəllim – 1 yer
19. Coğrafiya kafedrası – dosent – 1 yer, müəllim – 2 yer
20. Baytarlıq təbabəti kafedrası – dosent – 1 yer
21. Təməl tibb fənləri kafedrası – dosent – 1 yer, dosent – 1 yer (0,5 ştat), baş müəllim – 2 yer
22. Klinik fənlər və hərbi tibb kafedrası – dosent – 1 yer (0,5 ştat)
23. Əczaçılıq və biokimya kafedrası – dosent – 1 yer (0,5 ştat)
24. Təsviri incəsənət kafedrası – dosent – 1 yer, baş müəllim – 1 yer
25. Xalq çalğı alətləri kafedrası – baş müəllim – 1 yer
26. İngilis dili və metodika kafedrası – baş müəllim – 2 yer
27. Ümumi tarix kafedrası – müəllim – 1 yer
28. Şərq dilləri kafedrası – müəllim – 1 yer (0,5 ştat)
29. Pedaqogika və psixologiya – dosent – 2 yer, dosent – 1 yer (0,5 ştat)

*Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

**Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi**
**Telefon: (036) 545-23-66/10-01**

## Regional İntellekt Liqasının Naxçıvan üzrə ilk turu keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, "Paradoks" İntellektual Oyunlar Klubu və "Xəzər" İntellektual Gənclər Klubunun birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində Regional İntellekt Liqasının birinci turu baş tutub. İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan yarışmada 7 komanda iştirak edib.

Turun qalibi "Turangheta" komandası olub. İlk üçlüyü müvafiq olaraq "Sansb" və "Padaroks" komandaları tamamlayıblar.

Turnirin ikinci oyunu aprel ayında keçiriləcək. 4 seçim turunun sonunda ən çox xal toplayan komanda Bakı şəhərində keçiriləcək final turunda Naxçıvan regionunu təmsil edəcək.

### İtmişdir

Şahbuz rayon Hərbi Şəhərciyində yaşayan Xanəhmədov Emin Eldar oğlunun adına olan SQ-0017487 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Məmmədova Həcər Həsən qızının adına olan JN-0181$^{B}$ nömrəli, 10600028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Abbasov Nuru Rəsul oğlunun adına olan Anbaras küçəsi 12 ünvanında yerləşən fərdi yaşayış evinə aid 224 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kəndində Maxsudov Bayram Kərim oğlunun adına olan JN-289$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Stans-Daşarx kəndində yaşamış Quliyev Əkbər Mirzə oğlunun adına olan 415$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Bağırov İdris Məhərrəm oğlunun adına verilmiş JN-425$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 59

Nömrəyə məsul: Nail Əsgərov, Turan Məmmədli, Əhməd Əhmədov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.